ədalət.- 2021.- 22 may.- S.13

# MAHİR İFAÇI

**Qarmon ifaçılığı sənətindən söz düşəndə istedadlı qarmon ifaçısı Ənuşirəvan Eynulla oğlu İsrafilovun adını da fəxrlə çəkə bilərik. Ənuşirəvan İsrafilov mənim sənətini dəyərləndirib qiymətləndirdiyim sənətkarlardandır. O, 1951-ci il 21 may tarixində Bakı şəhərində anadan olub. Əslən Xızının Xənəgah kəndindəndir. Valideynləri sonradan Bakıya köçmüş, Hövsan qəsəbəsində məskunlaşmışlar. Uşaqlıqdan xalq musiqisi abı-havasında boya-başa çatan Ənuşirəvan musiqinin sehrinə alışır və musiqiçi olmağı qarşısına məqsəd qoyur. Yeddi yaşından nağara aləti ilə məşğul olur.**

Sonradan böyük qardaşı, tanınmış qarmon ifaçısı, xalq artisti Aftandil İsrafilovun ifasından zövq alaraq, qarmona marağı artır. Elə ilk müəllimi də qardaşı olur. O, Bakıdakı 199 saylı orta məktəbi bitirib indiki Mədəniyyət və İncəsənət Universitetinin (keçmiş M. Əliyev adına İncəsənət İnstitutu) mədəni-maarif fakültəsinə daxil olur. 1976-cı ildə ali təhsilli musiqiçi kimi məktəbi bitirir. Mahir ifaçı kimi daha da təkmilləşərək, el məclislərinə dəvət almağa başlayır. Məşhur tarzən, xalq artisti, mərhum sənətkarımız Həbib Bayramov onun ifasını bəyənərək, Əhməd Bakıxanov adına Xalq Çalğı Alətləri Ansamblına dəvət edir. Bu ansamblla xanəndə və müğənnilərdən Sara Qədimova, Rübabə Muradova, Tükəzban İsmayılova, Tələt Qasımov, Arif Babayev, Qədir Rüstəmov, Ağaxan Abdullayev, Teymur Mustafayev, Zabit Nəbizadə və başqalarını qarmonda müşaiyət etmişdir. Sonradan Azərbaycan Konsert Birliyində xalq artisti Zeynəb



Xanlarovanın rəhbərliyilə Xalq Çalğı Alətləri Ansamblında solist kimi ifaçılıq fəaliyyətini davam etdirmişdir.

Dəfələrlə xarici ölkələrdə çıxışlar etmiş, doğma Azərbaycanımızı tərənnüm etmişdir. Ə. İsrafilov xalq musiqisinin, qarmon alətinin incəliklərini dərindən duyan, ifa zamanı zəngin, üslub etibarilə dərin, milli ənənələrə əsaslanan, eyni zamanda özünəxas, ifası ilə seçilən sənətkardır. O, həm mahir solist, həm də gözəl müşaiyətçidir. Ənuşirəvan muğam və mahnılarımızla yanaşı, bəstəkarlarımızın da əsərlərini məharətlə ifa edən ustad sənətkarlardan biridir.

Onu da qeyd edim ki, qarmon alətinin vətəni Çin olsa da, müasir formalı qarmonları alman K.F.L. Buşman 1822-ci ildə icad etmişdir.

1830-cu illərdə diatonik səsdüzümlü qarmonlar Rusiyanın Tula şəhərində istehsal olunub. Təxminən 10-15 il sonra, XIX əsrin I yarısında belə qarmonlar Azərbaycana gətirilib. 1870-ci idə tulalı dirijor və qarmon ustası N.Beloborodov xromatik səsdüzümlü qarmonlar düzəltmişdir. Qarmon sözü yunanca harmon sözündən götürülüb, nizam, əlaqə mənalarını bildirir. Azərbaycan qarmonu peşəkar alətdir, ali təhsil ocaqlarında tədris olunur.

Ənuşirəvan İsrafilovun keçdiyi ömür yoluna nəzər saldıqda onun necə mənalı və şərəfli bir yol keçdiyinin şahidi olursan. Ustad sənətkar Ənuşirəvan Eynulla oğlu Yasamal Rayon Ağsaqqallar Şurası tərəfindən milli musiqimizin inkişafında və təbliğində əvəzsiz xidmətlərinə və anadan olmasının 70 illik yubileyi münasibətilə onu fəxri diplomla təltif etmişdir.

**Fürsətdən istifadə edib mahir qarmon ifaçısı, ustad sənətkar Ənuşirəvan müəllimi 70 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, uzun ömür, cansağlığı, musiqimizin inkişafında və təbliğində ona müvəffəqiyyətlər arzulayırıq.**

**Elşad Dağlı,**
**"Cabir Novruz" Mədəniyyət Fondu mətbuat xidmətinin rəhbəri,**
**AJB-nin üzvü**